

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 184 (21.594)

1 oktyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Mansel son dövr Fransa ilə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğulayıb. O, bu yaxınlarda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Parisdə təşkil olunan “Azərbaycan şəhərciyi”nin təqdimatının bütün iştirakçılarda çox böyük təəssürat yaratdığını, ölkəmizə olan marağın daha da artdığını bildirib. Təmsil etdiyi qurumun 25 üzvü ilə bərabər ölkəmizə səfər etdiyini deyən fransalı qonaq nümayəndələrin hazırda Şəki şəhərində olduqlarını, sonra isə Gəncəyə gedəcəklərini vurğulayıb.

Fransa Milli Assambleyasının deputatı, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Manselin böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu bildirən Prezident İlham Əliyev səfərin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını deyib. Parisin mərkəzində “Azərbaycan şəhərciyi”nin açılışının və fəaliyyətinin önəmini vurğulayan dövlətimizin başçısı artıq bir neçə dəfədir ki, bu cür təqdimatların keçirildiyini, Fransa və Paris sakinlərində məmnunluq doğurduğunu qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın geniş təqdimat tədbirlərində fəal iştirakına görə Jan Fransua Manselə təşəkkürünü bildirib. Dövlətimizin başçısı bu cür tədbirlərin və eləcə də Fransanın tanınmış xadimlərinin Azərbaycana səfərlərinin ölkəmizin Fransada daha geniş şəkildə tanınması və ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə mühüm töhfə verəcəyini vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) prezidenti Aleksander Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Babək rayonunda yeni suvarma şəbəkəsi istifadəyə verilmişdir

Müasir irriqasiya sistemlərinin qurulması kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada bu sahədə ardıcıl tədbirlər görülür, rentabelli suvarma şəbəkələri qurulur, hər il yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır, sudan səmərəli və qənaətlə istifadə olunur.





Sentyabrın 30-da Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, Kültəpə və Kərimbəyli kəndlərində torpaqları suvarma suyu ilə təmin etmək, su itkisinin və şoranlaşmanın qarşısını almaq məqsədilə Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalından diametri 720 millimetr olan 3060 metr yeni boru xətti çəkilmişdir. Suyun əraziyə itkisiz paylanması üçün 1272 metr beton kanal tikilmiş, kanalın üzərində 16 ədəd suburaxıcı qapılar qoyulmuş və 8 kilometrə yaxın ara arxları çəkilmişdir. Yeni suvarma sisteminin qurulması nəticəsində Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsində suvarma imkanları yaxşılaşdırılmışdır ki, bunun da 217 hektarı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Ölkəmizdə torpaqların əkilməsi və onlardan səmərəli istifadə olunması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikada da torpaqların su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır, yeni suvarma şəbəkələri qurulur. Bütün bunlar ümumilikdə muxtar respublika iqtisadiyyatının inkişafına xidmət edir.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və ölkə Prezidentinin himayəsi ilə istifadəyə verilən Heydər Əliyev Su Anbarı Babək rayonu ərazisində torpaqların su təminatını xeyli yaxşılaşdırmış, 16 min hektardan artıq torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Heydər Əliyev Su Anbarından başlayan sağ və sol sahil kanallarının üzərində rentabelli suvarma şəbəkələrinin qurulması isə min hektarlarla torpaq sahəsinin su təminatını yaxşılaşdırmış, su itkisinin və şoranlaşmanın qarşısı alınmışdır. Bu sahədə görülən işlər çərçivəsində ötən il Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi istifadəyə verilmişdir. Bu gün isə Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin torpaq sahələrini əhatə edən yeni suvarma şəbəkəsi istifadəyə verilir. Layihə üzrə tikinti işlərinə bu ilin aprel ayında başlanılmış və yerli mütəxəssislər tərəfindən keyfiyyətlə başa çatdırılmışdır. Nəticədə, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır.

Ali Məclisin Sədri demişdir: Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərində keyfiyyəti ilə seçilən bostan-tərəvəz məhsulları və üzüm yetişdirilir. Suvarma tədbirlərinin yaxşılaşdırılması əkin sahələrinin daha da genişləndirilməsinə, bol məhsul istehsalına imkan verəcəkdir. Gələcəkdə ərazidə qapalı suvarma şəbəkəsinin qurulması da nəzərdə tutulur. Ona görə də sakinlər yaradılan bu şəraitdən səmərəli istifadə etməli, torpaqlar əkilməli, bazarın tələbatına uyğun məhsul yetişdirilməlidir. Dövlətimiz tərəfindən torpaq mülkiyyətçilərinə subsidiyaların və gübrələrin verilməsi, texnika ilə təminat imkan verəcəkdir ki, bu tədbirlər uğurla həyata keçirilsin.

Ali Məclisin Sədri yeni suvarma şəbəkəsinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, torpaqlardan səmərəli istifadə olunacağına və bol məhsul yetişdiriləcəyinə əminliyini bildirmişdir.

Kültəpə kənd sakini Tapdıq Abbasov torpaq mülkiyyətçiləri adından minnətdarlıq edərək demişdir: Kültəpə və Kərimbəyli kəndlərinin sakinləri əsasən əkinçiliklə məşğul olurlar. Lakin torpaqların suvarılmasında müəyyən çətinliklər yaranırdı. Həyata keçirilən tədbirlər və istifadəyə verilən yeni suvarma şəbəkəsi hər iki kənddə su problemini həll etmişdir. Bu da əkin sahələrinin genişləndirilməsinə imkan verəcəkdir. Dövlətin yaratdığı şəraitdən səmərəli istifadə edərək torpaqları əkəcək, bol məhsul istehsal edəcək, ailələrimizin dolanışığını yaxşılaşdırmaqla yanaşı, həm də muxtar respublikamızın inkişafına töhfə verəcəyik.

Ali Məclisin Sədri suvarma şəbəkəsinin qurulmasında əməyi olanlara təşəkkür etmiş və onları qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının ölkəmizdəki səfiri İsmail Alper Coşkunla görüşmüşdür.

Ali Məclisin Sədri səfirin ölkəmizdəki diplomatik fəaliyyətini uğurla başa çatdırdığını, ötən dövrdə hər iki ölkə arasında əlaqələrin daha da inkişaf etdiyini bildirmişdir. Azərbaycan-Türkiyə əlaqələrinin soykök və ortaq dəyərlər üzərində qurulduğunu bildirən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı münasibətlərin əhəmiyyətini vurğulamışdır.

Ali Məclisin Sədri qarşılıqlı əlaqələrin inkişafındakı xidmətlərinə görə səfirə təşəkkür etmiş və ona gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Naxçıvanda olmaqdan məmnunluğunu bildirən İsmail Alper Coşkun Türkiyə-Azərbaycan əlaqələrindən danışmış, göstərilən xoş münasibətə və fəaliyyətinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## 1993-cü il 3 oktyabr:
## inkişaf, sabitlik və tərəqqinin başlanğıc tarixi

***1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı müdrik seçimini edərək dahi şəxsiyyət Heydər Əliyevi rəhbər seçmiş və bu qərarı ilə müstəqilliyimizin qorunub saxlanılmasına, ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini vermişdir. Dahi şəxsiyyət Heydər Əliyevi 1993-cü ildə Azərbaycana rəhbər seçməklə xalqımız əbədi müstəqilliyə, inkişafa, əmin-amanlığa, sabitliyə səs vermişdir. Tarix sübut etdi ki, doğrudan da, elin gözü tərəzidir. Bu tərəzinin gözü əyiləndə biz müsibətlərlə üz-üzə qalmışıq. 1990-1993-cü illər bunu bir daha sübut etmişdir.***

**Ulu öndər Heydər ƏLİYEV:** ***Mən həmişə xalqla bir olmuşam, xalqın taleyini öz taleyim bilmişəm. Həyatımı xalqın xoşbəxtliyinə həsr etmişəm və son nəfəsimədək bu yolda mübarizə aparacağam.***

Dövlət müstəqilliyinin bərpasında, təhsilin, səhiyyənin, dilimizin, mədəniyyətimizin hərtərəfli inkişafında ötən əsrin 70-ci illərindən təməli qoyulan islahatların və hazırlanan kadrların böyük rolu olmuşdur. Ulu öndər hələ Sovetlər Birliyi dövründə dövlət idarəçiliyində azərbaycanlı kadrları yerləşdirərkən, milli hərbçi kadrları hazırlayarkən öz xalqının gələcəyini düşünmüş, onun yolunda hər cür çətinliklərə dözmüşdür. O dövrdə yüzlərlə gəncin keçmiş SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrinə və hərbi məktəblərə oxumağa göndərilməsi, respublikamızda böyük infrastruktur layihələrinin həyata keçirilməsi, mühüm sənaye müəssisələrinin, elektrik stansiyalarının tikilməsi və digər tədbirlər Azərbaycanın gələcək müstəqilliyi yolunda atılan qətiyyətli addımlar idi. Hansı ki bu tədbirlər ölkəmizin ötən əsrin sonlarında əldə etdiyi müstəqilliyinin möhkəmləndirilməsində və inkişafında mühüm rol oynamışdır. 1969-1982-ci illərdə hakimiyyətdə olan ümummilli liderimiz öz xalqını zamanın ən çətin sınaqlarından çıxararaq Azərbaycanın sürətli inkişafına nail olmuşdur. Bununla bərabər, Azərbaycana birinci rəhbərliyi dövründə əsl vətəndaş və rəhbər kimi milli mədəniyyətimizin inkişafına böyük önəm verən görkəmli dövlət xadimi Heydər Əliyev 1969-cu ildən başlayaraq xalqımızın unudulmaqda olan adət-ənənələrini, milli dəyərlərini və xüsusiyyətlərini, mentalitetini də qorumuş və yaşatmışdır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyətsizlik, özbaşınalıq, xaos və anarxiya hökm sürürdü. Müstəqilliyimizin qorunub saxlanılması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin təmin olunması və nəhayət, Azərbaycanın parçalanmaqdan xilası ən mühüm vəzifələr idi. Daxili və xarici siyasətdəki uğursuzluqlar nəticəsində ölkənin müxtəlif bölgələrində separatçı qüvvələr baş qaldırmış, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası da ağır günlərini yaşayırdı. 1990-cı il iyulun 22-də ümummilli liderimizin Naxçıvana gəlişi xalqın böyük sevincinə səbəb olmuşdur. Onun möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, əhali hədsiz sevgi, məhəbbət və inamla qarşılamışdır. Hətta naxçıvanlılar bütün maneələrə baxmayaraq, qısa müddət ərzində ulu öndəri özlərinə rəhbər seçmişdilər. Görkəmli dövlət xadimi Heydər Əliyev hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirmiş, igid naxçıvanlılarla birlikdə onu təhlükələrdən qorumuş, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağını dirçəltməyə nail olmuşdur.

Dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər Azərbaycanın müstəqillik tarixində ən mühüm dövrlərdən sayılır. Belə ki, ulu öndər Heydər Əliyev Naxçıvanda Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edir, burada müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atırdı. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmişdir. Bu dövrdə görkəmli dövlət xadiminin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də qədim Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsidir. Naxçıvanın müdafiəsi sahəsində mühüm addımlar atılmışdı.

1990-1993-cü illərdə Azərbaycanda yaranmış dözülməz şərait, ölkənin vətəndaş müharibəsi, parçalanma və dağılma təhlükəsi ilə üzləşməsi, Ermənistanın hərbi təcavüzünün genişlənməsi qəti addımların atılmasını, hakimiyyətin etibarlı əllərə tapşırılmasını tələb edirdi. Artıq mövcud hakimiyyətsizlikdən, özbaşınalıqdan cana doymuş xalq ölkənin xilasını yalnız dahi rəhbər Heydər Əliyevdə görür, ümidlərini ona bağlayırdı. Belə bir zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etmişdir. Xalqın çağırışı ilə ümummilli lider 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya getmişdir. Bu qayıdış Vətənin xilası, xalqın qurtuluşu idi. İndi siyasi baxışlarından və dünyagörüşündən asılı olmayaraq, hər kəs etiraf edir ki, əgər tarixə Milli Qurtuluş Günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın istəyi və tələbi ilə 1993-cü ilin 15 iyununda ulu öndərimizin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratiya yolunda inamla irəliləyən Azərbaycan dövləti haqqında danışa bilməzdik.

Azərbaycanı müstəqilliyə hazırlayan ulu öndərimiz deyirdi: ***"Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur".*** Vətənin ağır günündə xalqın iradəsi ilə böyük siyasətə qayıdan dahi şəxsiyyət Heydər Əliyev bacarıqlı dövlət xadimi kimi ölkəmizi düşdüyü çətin vəziyyətdən, müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmişdir. 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri, sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran ağır sınaq idi. Xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan həmin seçkidə ulu öndər Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bu tarix həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır. Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdir: ***"Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".***

1993-cü ilin 3 oktyabr seçimi xalqın müstəqil Azərbaycanın gələcəyini müdrik rəhbərə həvalə etmək istəyinin təcəssümü idi. Xalqımızın çox ağır günlərində hakimiyyətə qayıdan görkəmli dövlət xadimi Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən qanunsuz silahlı dəstələr ləğv edilmiş, ölkədə sabitlik yaradılmışdır. Bu sabitlik müstəqil Azərbaycanın tarixində inkişaf və tərəqqiyə gedən yolun başlanğıcı olmuşdur. Xalqımızın böyük oğlu Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkə iqtisadiyyatında tənəzzül prosesinin qarşısı alınmış, inflyasiyanın səviyyəsi minimal həddə endirilmişdir. Ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, böyük investisiya qoyuluşlarının reallaşdırılması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Bir sözlə, ulu öndərimizin 1969-cu ildən başladığı quruculuq xəttini 1993-cü ildən sonra davam etdirməsi hərtərəfli inkişaf edən və regionda liderə çevrilən müstəqil Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***"Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, bir sıra mühüm siyasi və iqtisadi islahatlar başlanmışdır".***

Bəli, 1993-cü il 3 oktyabr seçkilərinin bəhrəsini bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında daha aydın görürük. Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizi iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına yüksəltmişdir. İndi Azərbaycan yoxsulluğun və işsizliyin azaldılmasına, adambaşına düşən ümumi daxili məhsul istehsalının həcminə, beynəlxalq aləmə inteqrasiya və bir çox göstəricilərə görə dünyanın öncül dövlətləri sırasındadır. Ölkəmizin artan nüfuzunun göstəricisidir ki, regionda həyata keçirilən mühüm layihələr Azərbaycanın icazəsi olmadan reallaşmır. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP kimi beynəlxalq enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın dünyadakı siyasi və iqtisadi qüdrətini günbəgün artırmaqdadır.

Artıq Azərbaycan mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən, vətəndaşlarının hüquq və azadlıqlarının tam təmin olunduğu ölkədir. Güclü dövlətçiliyə və iqtisadiyyata malik Azərbaycanda geniş sosial infrastruktur vardır. Ən əsası isə Azərbaycan ümummilli lider Heydər Əliyevin siyasi xəttinə uyğun olaraq xalq-dövlət birliyinin mövcud olduğu sabit ölkədir.

Təbii ki, əldə olunmuş uğurlu nəticələrdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına da böyük pay düşmüşdür. Heydər Əliyev siyasi yolunun muxtar respublikada layiqincə davam etdirilməsi Naxçıvanı ölkəmizin lider regionuna çevirmişdir. Bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, eləcə də digər şəhər, qəsəbə və kəndlərimiz, sözün əsl mənasında, yeniləşmə və inkişaf dövrünü yaşayır. Hərtərəfli və dinamik inkişafın real təzahürləri hər addımda göz oxşayır. Ötən əsrin 90-cı illərində tarixin ağır sınaqlarına tuş gələrək blokadaya salınmış, düşmənin əsas hədəfinə çevrilmiş, sabahına heç bir ümidi olmayan Naxçıvan bu gün beynəlxalq tədbirlərin, mədəni festivalların keçirildiyi mərkəzə çevrilmişdir. İndi bu diyara yolu düşən əcnəbilər də, ölkənin digər vətəndaşları da Naxçıvanın gözəlliyinə valeh olur, burada görülmüş işləri birmənalı olaraq yüksək qiymətləndirirlər.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızı həqiqi müstəqilliyə, Azərbaycan dövlətini isə inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Ötən illər bir daha təsdiq etdi ki, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin yeganə təminatı ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir".***

**"Şərq qapısı"**



*Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən, hər il oktyabrın 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur.*

## Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir

Ölkəmizdə prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına və uzunmüddətli inkişaf yolu keçməsinə baxmayaraq, onun müstəqil dövlət orqanı kimi fəaliyyəti və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyə tam nail olunmuş, qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi milli dəyərlər və beynəlxalq prinsiplər əsasında təmin edilmişdir. Bu tədbirlərin tərkib hissəsi olaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarına konstitusion status verilərək onun fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. ***"Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir"***, – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsində 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması üçün hüquqi zəmin formalaşdırmış, prokurorluğun fəaliyyət istiqamətlərini müəyyən etmişdir. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların dövlət başçısı tərəfindən təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyev prokurorluq orqanlarının yeniləşdirilməsi ilə əlaqədar qarşıda duran vəzifələri müəyyənləşdirərək demişdir: ***"Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Hazırda ölkəmizdə prokurorluq orqanları ilə ictimaiyyətin əlaqələri qarşılıqlı etimad prinsipi əsasında qurulmuş, vətəndaşların müraciətlərinin vaxtında araşdırılması və zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müstəqil dövlətin əsas sütunu onun hüquq-mühafizə orqanlarıdır. Hər bir ölkənin ümumi sabitliyi, sosial-iqtisadi inkişafı, ilk növbədə, həmin ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətindən asılıdır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir".***

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları yüksək dövlət qayğısını daim öz üzərində hiss etmişdir. Ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Cinayət hadisələrinin qarşısının vaxtında alınmasında qabaqlayıcı-profilaktik tədbirlərin həyata keçirilməsi mühüm amildir. Muxtar respublikanın prokurorluq orqanları işçiləri qanunvericiliyin izahı, hüquqi maarifləndirmə və profilaktik tədbirlərin keçirilməsini diqqət mərkəzində saxlayaraq kütləvi informasiya vasitələrinin gücündən səmərəli istifadə etməyə çalışırlar. Bunun nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır.

Prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə, müsabiqə yolu ilə keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına təkmilləşdirilməsinə səbəb olmuşdur. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində görülən tədbirlər nəticəsində prokurorluq orqanları struktur və mahiyyət baxımından tam yenidən qurularaq onun mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən çevik və işlək dövlət təsisatı kimi formalaşmasına nail olunmuşdur.

*Prokurorluq orqanları bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq ölkəmizin müstəqilliyinin daha da möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və respublikamızda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini layiqincə yerinə yetirəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun***
***Hüquqi təminat və informasiya şöbəsi***

*1 oktyabr Beynəlxalq Ahıllar Günüdür*

## Ahıl vətəndaşlara davamlı dövlət qayğısı göstərilir

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul etdiyi qətnaməyə uyğun olaraq, hər il oktyabrın 1-i dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu günün təsis olunmasında məqsəd ahılların sosial problemlərini öyrənmək və ictimaiyyətin diqqətini onların həllinə yönəltməkdən ibarətdir.***

Həyat təcrübəsi ilə gələcək nəsillərə nümunə olan ahıllara hörmət və qayğı həm də nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək kimi mühüm amala xidmət edir. Tarixboyu Azərbaycan xalqı yaşlı nəslin nümayəndələrinə ehtiram göstərməyi yüksək insani keyfiyyət kimi dəyərləndirmişdir.

Ölkəmizdə ahıl insanlar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub və bu qayğı ildən-ilə artır. Onlara müxtəlif növ xidmətlərin göstərilməsi, maddi-məişət şəraitinin yaxşılaşdırılması, cəmiyyətə inteqrasiyası diqqət mərkəzində saxlanılır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük həssaslıqla yanaşmış, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də diqqət mərkəzindədir. Pensiya və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması, ahılların sosial rifahının yaxşılaşmasına hüquqi imkanlar yaradan qanunların qəbul edilməsi onlara göstərilən davamlı dövlət qayğısının ifadəsidir.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına, yaşayış səviyyəsinin yüksəlməsinə hərtərəfli şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən islahatların davamlılığını təmin etmişdir. Ahıl insanlara göstərilən müxtəlif növ xidmətlərin səmərə və keyfiyyətini artırmaq məqsədilə onlar haqqında informasiya bazası yaradılıb və hər ay bu məlumat bazası yenilənir.

Muxtar respublikada 1941-1945-ci illər müharibəsi veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Müharibə iştirakçıları minik maşını ilə təmin olunur, onların yubiley yaşları qeyd olunur, sosial müdafiələrini gücləndirmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, 1941-1945-ci illər müharibəsi iştirakçısı olan 122 ahıl minik maşını ilə, 2 ahıl evlə təmin olunub, 37 nəfər müharibə əlil və iştirakçısına hər ay Prezident təqaüdü ödənilir.

Hazırda tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan 444 ahıl vətəndaşa evlərində, 16 ahıla isə Ahıllar evində sosial xidmət göstərilir. Tənha yaşayan ahıllara mütəmadi olaraq evlərində baş çəkilərək qayğıları ilə maraqlanılır, onlar həkim müayinəsindən keçirilir, zəruri sosial problemləri yerində həll edilir. Ahıllar evi sakinlərinin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb. Sakinlər mütəmadi olaraq tibbi müayinədən keçirilir, müalicələrinə köməklik göstərilir, əlamətdar günlərdə sakinlərlə görüşlər təşkil olunur, onlara sovqatlar təqdim edilir.

Ahıl insanların sağlamlıqlarının qorunmasına, tibbi reabilitasiyasına xüsusi önəm verilir, onların protez-ortopedik və müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmaları üçün səyyari xidmətlər göstərilir, respublikanın sanatoriya və pansionatlarına göndərişlər verilir. Bundan başqa, ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər, stolüstü oyunlar üzrə yarışlar təşkil olunur. Ahılların əl işlərinin satışının təşkil edilməsi onların məşğulluğunu təmin etməklə maddi təminatlarının yaxşılaşmasına xidmət edir.

Ahıllar mütəmadi yad edilirlər, bayram tədbirlərinə dəvət olunurlar, onların yubiley yaşları, uzunömürlü ailələrin qızıl və brilyant toyları qeyd olunur. Sosial xidmət göstərilən tənha ahılların muxtar respublikanın tarixi və görməli yerlərinə gəzintilərinin, həftənin şənbə günləri onların yaşayış yerlərində iməciliklərin həyata keçirilməsi ahıllara göstərilən dövlət qayğısının təzahürüdür.

Bu tədbirlərin davamı olaraq Beynəlxalq Ahıllar Günü münasibətilə muxtar respublikada ahılların iştirakı ilə silsilə tədbirlər həyata keçirilir. Belə ki, Ahıllar evi sakinlərinin və sosial xidmət göstərilən tənha ahıllardan bir qisminin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ziyarəti, muxtar respublikanın ən uzunömürlü sakini ilə, həmçinin Ahıllar evində, Naxçıvan şəhərində və rayonlarda sosial xidmət göstərilən tənha ahıllarla görüş təşkil edilir, onlara sovqat təqdim olunur.

Muxtar respublikanın dinamik inkişafı ahılların sosial müdafiəsinin güclənməsinə, rifahının daha da yaxşılaşmasına hərtərəfli zəmin yaradır.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

*Sentyabrın 30-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat, Mədəniyyət və Turizm nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Plov” və “Yallı” festivalları keçirilib. “Plov” festivalında 50 həvəskar qadın, 20 iaşə obyekti, “Yallı” festivalında isə muxtar respublikanın 14 yallı kollektivi iştirak edib.*

# Naxçıvanda “Plov” və “Yallı” festivalları keçirilib



Festivalların açılış mərasimində aparıcılar qeyd ediblər ki, qədim oğuz yurdu Naxçıvanın bugünkü sosial-iqtisadi, elmi-mədəni inkişafı burada keçirilən beynəlxalq elmi simpozium və konfranslarla, eləcə də beynəlxalq və yerli əhəmiyyətli mədəni tədbirlərlə müşayiət olunmaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamından sonra xalq yaradıcılığının müxtəlif sahələrini əhatə edən, adət-ənənələrimizin təbliğinə yönəlmiş tədbirlərin əhatəsi daha da genişlənib. Təkcə bu ilin may-avqust aylarında Naxçıvanda 4 festival keçirilib. “Yaradıcı əllər”, “Göycə”, “İstedadlı uşaqlar” və “Naxçıvan çörəkləri” adlı festivallar ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bu gün keçirilən “Plov” və “Yallı” festivalları da muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmaqla, bölgələrimizə xas müxtəlif çeşidli plov növlərinin və onların hazırlanması qaydalarının nümayişi, xalqımızın ən qədim folklor nümunələrindən olan, birlik və mübarizlik rəmzi sayılan yallılarımızın təbliği baxımından olduqca əhəmiyyətli tədbirdir.





Qeyd edilib ki, plov Şərq xalqlarının süfrə mədəniyyətinə aid olan yeməkdir. Mənbələrin məlumatlarına görə, ölkəmizdə plovun 200-dən çox növü var. Bu gün festivalda nümayiş olunan müxtəlif plov növləri peşəkar və həvəskar aşpazlar tərəfindən hazırlanıb. Milli mətbəximizin incisi plov sayıldığı kimi, xalqımızın zəngin folklorunu yaşadan da yallılarımız hesab olunur. Yaşı min illərlə ölçülən yallı haqqında təsvirlərə və məlumatlara Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində, “Kitabi-Dədə Qorqud” dastanlarında və ədəbiyyatımızda Nizaminin “Xosrov və Şirin” poemasında rast gəlinir.

Süfrələrimizin bəzəyi olan plov barədə danışan “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzinin direktoru Türkay Səfərzadə qeyd edib ki, xalq yaradıcılığının ən qədim sahələrindən olan mətbəx mədəniyyətinin öyrənilməsi və inkişaf etdirilməsi, təbliğ edilməsi, tanıdılması sahələrində də muxtar respublikamızda əhəmiyyətli işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 aprel 2009-cu il tarixli Sərəncamı ilə yaradılan “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi ölkəmizdə bu sahənin təbliği məqsədi ilə fəaliyyət göstərən ilk mərkəzlərdən biridir.

“Naxçıvan diyarının mətbəx mədəniyyətində bu bölgəyə xas olan yeməklər nənə və babalarımızın yaradıcılıq dünyasının geniş olduğunu göstərir”, – deyən Türkay Səfərzadə vurğulayıb ki, qədim diyarımızın mətbəx mədəniyyətində rəngarənglik, müxtəlif əşyaların işlənməsi, qida məhsullarının çoxluğu min illər boyu formalaşmış zəngin irsin böyük inkişaf yolu keçdiyini, qorunaraq, yad təsirlərə müqavimət göstərərək bu günə gəlib çatdığını göstərir. Qədim diyarımızda bu ləziz mətbəx nümunələrinə qonaqpərvərlik, qonağa ehtiram duyğularının da əlavə olunması həm də insanlarımızın mənəvi zənginliyini göstərir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə 2012-ci ildə nəfis şəkildə Azərbaycan və ingilis dillərində nəşr olunan “Naxçıvan mətbəxi” kitabı diyarımızın mətbəx mədəniyyətinin qədim və zənginliyini öyrənmək və təbliğ etmək baxımından nadir mənbədir.

Yallılarımızla əlaqədar “Şərur” Xalq Yallı Ansamblının direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva çıxış edərək bildirib ki, bu gün muxtar respublikamızda 40-dan çox yallı oynanılır. “Xələfi”, “Tənzərə”, “Köçəri”, “Höynəri”, “Qaleyi”, “Qazı-qazı”, “Sareyi”, “Şahgəldi”, “Tello”, “Söylə”, “Nazilə”, “Qızılbaş”, “Çökəli”, “Çaleyi”, “Göyçəməni”, “Hərilli”, “Xəlili”, “Əfsəri”, “Bəndi”, “Sındırma”, “Şərili”, “Tirməşal”, “Urfanı”, “Gilanı”, “Kərimbəy”, “Nuraşan”, “Baharı” və başqa yallılarımız bir elin həm tarixini, həm də əcdadlarımızın həyat ritmini, sevincini, babalarımızın yer titrədən ayaq səslərini, nərə səslərini, hər kəsi Vətən uğrunda birliyə, döyüşə çağıran ruhunu özündə yaşadır.

Kimya Babayeva deyib ki, “Şərur” Xalq Yallı Ansamblı 1929-cu ildə yaradılıb, 1936-cı ildə səhnəyə qədəm qoyub. Bu günə qədər ansambl ölkədə və xaricdə keçirilən müxtəlif festivallarda uğurla iştirak edərək mükafatlar qazanıb. 2005-ci ildə Şərur yallı ansamblına xalq yallı ansamblı statusu verilib. Ansamblın üzvlərindən 4 nəfər “Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi” fəxri adına, 10 nəfər Prezident mükafatına, 2 nəfər isə “Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti” fəxri adına layiq görülüb. Bütün bunlar kollektivin əməyinə verilən yüksək qiymətdən, göstərilən diqqət və qayğıdan xəbər verir. Bu gün Şərur rayonunda yallı ifaçılarının üç nəsli bu qədim rəqs növünü yaşadır. Şərur yeganə rayondur ki, burada həm gənc, həm ortayaşlı, həm də yaşlı nəslin nümayəndələrindən ibarət yallı ansamblları fəaliyyət göstərir. Bu da onu deməyə əsas verir ki, Şərur yallısı dünən və bu gün olduğu kimi, gələcəkdə də yaşayacaqdır.

“Yallı” festivalında muxtar respublikada fəaliyyət göstərən yallı kollektivlərinin çıxışları olub. “Şərur” Xalq Yallı Ansamblının, Şərur Rayon Mədəniyyət Evinin “Şərur qönçələri” yallı ansamblının, Babək Rayon Mədəniyyət Evinin “El yallıları”, Ordubad Rayon Mədəniyyət Evinin “Nuray”, Kəngərli Rayon Mədəniyyət Evinin yallı qruplarının və digərlərinin çıxışları alqışlarla qarşılanıb.

“Plov” festivalında həvəskar qadınların və iaşə obyektlərinin hazırladığı plov çeşidlərinin, eləcə də düyüdən hazırlanan digər yemək növlərinin sərgi-satışı təşkil edilib. “Plov” festivalı çərçivəsində “Ən yaxşı plov” nominasiyası üzrə müsabiqə təşkil edilib, münsiflər heyəti tərəfindən peşəkar və həvəskar şəxslər olmaqla, 2 nəfər I yerə, 4 nəfər II yerə, 6 nəfər III yerə layiq görülüb.



Sonra isə “Ən yaxşı plov” nominasiyası üzrə qaliblərə diplom və “Naxçıvan mətbəxi” kitabı, məişət avadanlığı verilib.

“Yallı” festivalı çərçivəsində tədbirdə iştirak edən yallı kollektivlərinə isə fəxri fərmanlar təqdim edilib.

Festivallara muxtar respublika sakinləri ilə yanaşı, Naxçıvanın qonaqları da böyük maraq göstəriblər.

✍ **Rauf ƏLİYEV**

# Beynəlxalq Ahıllar Günü qeyd olunub

Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil edilən silsilə tədbirlərin davamı olaraq, sentyabrın 30-da Şahbuz şəhərindəki Ahıllar evinin sakinləri ilə görüş keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək qeyd edib ki, muxtar respublikada dinamik inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına geniş imkanlar yaradıb. Ahıl insanların sağlamlıqlarının qorunmasına, yaşayış səviyyəsinin yüksəlməsinə xüsusi önəm verilir. Ahıllar bayram tədbirlərinə dəvət olunur, onların yubiley yaşları, uzunömürlü ailələrin qızıl və brilyant toyları qeyd edilir.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxışında bildirib ki, rayonda yaşayan ahılların sosial vəziyyətlərinin yaxşılaşması, onların sağlam həyat tərzində yaşaması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Ahıllar evində də sakinlərin rahat yaşaması üçün hərtərəfli şərait yaradılıb. Onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidməti göstərilir.

Tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud ifaçılardan ibarət “İnam” musiqi qrupu sakinlər qarşısında konsert proqramı ilə çıxış edib.

Sonda sakinlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən sosial xidmət göstərilən tənha ahılların iştirakı ilə tədbirlər keçirilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və yerli icra hakimiyyətlərinin nümayəndələri çıxış edərək ahılların sosial müdafiəsinin təmin olunması məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Tədbirlərdə, ümumilikdə, 457 ahıla bayram sovqatı təqdim olunub.

Ahıllar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi

## *muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi qaydası Ali Məclis Sədrinin 18 noyabr 2010-cu il tarixli Sərəncamı ilə müəyyən olunur.

Muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqəyə ali məktəbləri gömrük işi, maliyyə, iqtisadiyyat, hüquq, beynəlxalq münasibətlər və xarici dil (rus və ingilis) ixtisası üzrə bitirən şəxslər buraxılır. Bir qayda olaraq namizədlərin yaşı 30-u keçməməlidir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər ***www.dgk.nmr.az*** internet saytına daxil olmaqla muxtar respublikanın gömrük orqanlarına işə qəbulla bağlı müəyyən olunmuş elektron ərizə formasını doldurmalıdırlar. Elektron ərizə müsabiqədə iştirak üçün ilkin əsas sayılır. Elektron ərizə ilə qeydiyyat bir ay müddətində – oktyabr ayının 1-dən noyabr ayının 1-dək davam edəcək. Müsabiqədə iştirakla bağlı elektron ərizə qəbulu başa çatandan sonra qeydiyyatı təsdiqlənmiş şəxslərə imtahanın vaxtı ilə bağlı qeydiyyatdan keçdikləri elektron poçt ünvanı vasitəsilə məlumat veriləcəkdir.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə görə gömrük orqanlarında işləməyə qadir olmayan, gömrük, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Müsabiqə hər bir namizədin gömrük işi üzrə bilik səviyyəsinin, ümumi dünyagörüşünün, gömrük orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Xarici dil bilən (əsasən rus və ingilis) və kompüterdə işləmək bacarığı yüksək olan şəxslərə müsabiqənin müsahibə mərhələsində üstünlük verilir.

***Əlaqə telefonları:***
***(036) 544-49-60; (036) 544-49-72***


**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 733